**UOT 745/749**

**Günay Qasımxanlı**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**dissertant**
**E-mail:qasimxanligunay@gmail.com**

# 1970-Cİ İLLƏRDƏ "KİRPİ" JURNALINA EDİLMİŞ İLLÜSTRASİYALARDA İNKİŞAFIN OPTİMİST İFADƏSİ

**Xülasə:** 1952-ci ildə Azərbaycan dövri mətbuatında yeni bir satirik jurnal nəşr olunmağa başladı. "Molla Nəsrəddin" məktəbinin layiqli davamçısı hesab olunan "Kirpi" jurnalı əslində dövrün tələbi kimi yarandı. Jurnal o dövrün görkəmli rəssamları üçün tribuna rolunu oynadı və bir-birindən qiymətli karikatura nümunələri yaranmağa başladı. "Kirpi" jurnalındakı karikaturalar Azərbaycan karikatura sənətində yeni ənənələrin formalaşmasına təkan verdi. Məqalədə ötən əsrin 70-ci illərində "Kirpi" jurnalında çap edilmiş karikaturaların bədii xüsusiyyətləri öyrənilmişdir. Həmin karikaturaların semantikası, ideya-məzmun xüsusiyyətləri tədqiqat predmetinə çevrilmişdir.

**Açar sözlər**: Karikatura, "Kirpi", jurnal, təsvir, qrafika, satira, kompozisiya.

Yarandığı ilk illərdən başlayaraq cəmiyyətin tərəqqisində mənfi ünsürlərin tənqidini satira atəşinə tutan "Kirpi" jurnalında inkişafı dəstəkləyərək insanlarda xüsusi ruh yüksəkliyi, optimist əhval-ruhiyyə yaradan, onları parlaq və xoşbəxt bir cəmiyyətin vətəndaşı olduqlarına inandırmağa çalışan illüstrasiyaların da müxtəlif rəssamlar tərəfindən rəngrəng kompozisiyalarla həyata keçirildiyinin şahidi oluruq. Təbii ki, bu, dövrün ədəbiyyat və incəsənət qarşısına qoyduğu ən böyük tələblərdən biri idi. Bu mənada sovet ideologiyasından irəli gələrək rəssamlar yaratdıqları əsərlərində, sadəcə, tənqidi xarakter daşıyan kompozisiyalarla yanaşı, eyni zamanda xalqı daha parlaq bir gələcəyin gözlədiyinə inam yaradan optimist ruhlu illüstrasiyalara da müəlliflik edirdilər. Ənənəvi hal almış bu prinsipiallığın əsasən yeni ildə, növbəti ilə keçid zamanı sevinclə qarşılanan daha xoşbəxt zamanın gəldiyinə işarə edilməsi məqsədin xüsusi olaraq öz xarakterini büruzə verməsinə imkan yaradırdı.

Misal olaraq, 1975-ci ilin dekabr ayında çap edilmiş jurnalda verilmiş illüstrasiyada gülərüzlü Şaxta babanın 1975-ci ili təmsil edən simvolik obrazı özünün müdrikliyi, insanlara, ümumiyyətlə, bütün dünyaya, həyata olan sevgisi ilə həll edilmişdir (1, 11). Bunun üçün rəssam onun cizgi dəqiqliyini psixoloji yanaşması nəticəsində olduqca inandırıcı və real formada həyata keçirməyi bacarmışdır. Əlbəttə ki, burada məkan-mühitinin də obrazlarla sintezinin əsas tutulma-

sını nəzərdə saxlayan rəssam ətrafda bayram əhval-ruhiyyəsini də uğurla həyata keçirmişdir. Belə ki, mavi göy üzündə oynayan incə qar dənələrinin yağması, qar tutmuş bəyaz yer qatı, Moskva şəhərində Sovet İttifaqı Kommunist Partiyasının XXV qurultayının uğurla həyata keçirildiyinə işarə edən möhtəşəm və parlaq binanın ifadəsi, ətrafda azadlığın imkan verdiyi insan xoşbəxtliyini ifadə edən insanların tərənnümü qeyd olunanların bariz açıqlamasıdır. 1975-ci il əlində qürurla saxladığı 10-cu beşillik planı yeni ilə sevinc və inamla təqdim edir. Yeni ili rəssam olduqca təmiz simalı bir gəncin simasında ifadə etməyi daha məqsədəuyğun hesab etmişdir. Müdrik köhnə il topladığı təcrübələri sanki bir əmanət olaraq, onu daha da inkişaf etdirmək ümidi ilə yeni ilə təqdim edir. Ön səhnədə yer alan mənzərə tamaşaçılarda xoş hisslər yaradaraq, onları da işıqlı gələcəyin yaxında olduğuna inandırmağa davam edir.

Bəlkə də bu bir reallıq deyildi. Lakin dövrün böyük siyasi tələbatına dəstək verən əsərlərin optimist ruha malik olması, tamaşaçılarında xoş əhval-ruhiyyə yaratması danılmazdır.

Oxşar təsir gücünü rəssam A.Anisimovun yaratdığı digər illüstrasiyada da görmək mümkündür (2, 8). Rəssamın 1977-1978-ci ilin kəsişməsində qarşılaşdırdığı iki obrazın hər ikisində yüksək əhvalın məharətlə həyata keçirilmiş bədii ifadəsi ilə qarşılaşırıq. Burada da geridə qalan il həyata sevinclə, sevgi ilə baxan müdrik qocanın obrazında canlandırılmışdır. Onun qarşısındakı gəncə sevgi ilə baxması eyni zamanda gəncliyə bəslədiyi böyük ümid və inamın tərənnümü kimi də diqqəti cəlb edir. Həyata ilk qədəmlərini basan 1978-ci il daha xoşbəxt, sevinc dolu bir uşağın simasında öz həllini tapmışdır. Yaşlı obraz əlində tutduğu dünyanı əks etdirən qlobusu qarşısındakı insana təqdim edir. Əsərin mahiyyətini açıqlayan əsas hissələrdən biri də həmin elementin üzərində sülhü, əmin-amanlığı simvolizə edən göyərçinin əks olunmasıdır. Rəssam bununla qurulmuş xoşbəxt və azad bir dünyanın yeni nəslə ərmağan edildiyinə bir işarə edir. Uşaqların xoşbəxtliyinə, sülh şəraitində yaşamasına çalışan cəmiyyətin əsas amalı kimi vurğulanan simvolik təsvir vasitəsi qışın qarlı havasında ətrafı bürümüş qarın bəyazlığını da təmizliyin, paklığın ifadəsi kimi obrazlarla uğurla əlaqələndirməyi bacaran rəssam hər iki obrazın geyim tərzini eyni stildə həll etməklə qeyd edilən bu xoşbəxt həyatın davamı kimi qiymətləndirmişdir. Yuxarıda parlaq şəkildə axan mavi və qırmızı işıq atışlarının kəsik xətlərlə ifadə edilməsi də əsərin psixoloji təsir gücünə öz təsirini göstərmişdir.

Jurnalın 1976-ci ilin dekabr ayında dərc edilmiş nömrəsində verilmiş digər bir illüstrasiyada yenə də Yeni il ənənəsi və bu günün insanlara bəxş etdiyi sevincin, yeni arzuların əksi kimi özünün yüksək təsir gücü ilə maraq oyatmağa davam edir (3, 34). Lakin burada milli-ənənəvi obrazlar daha çox diqqəti cəlb edən nüans olaraq qarşımıza çıxır. Arxada bayram ruhunun hökm sürdüyü şəhər

mühiti əlində çiçək tutmuş, tələsən insanları, yanan işıqların daha güclü olduğu məkan təəssüratı ilə diqqəti çəkir. Öz işindən məmnun qalan "Kirpi" addımlayan bir vətəndaşa yaxınlaşaraq onun əhvalını xəbər alır. O isə işdə hər şeyin daha irəli getdiyini ifadə edən cümlələrlə yeni ili qarşılamaq üçün evə tələsdiyini qeyd edir. Həmin şəxsin üz cizgilərində verilmiş sevinc, sadəcə, bayramın gətirdiyi ümumi əhval-ruhiyyə ilə deyil, bütünlükdə cəmiyyətdəki xoşbəxt mövqeyindən xəbər verir. Rəssam burada artıq zamanın yaxınlaşdığını, yeni ilə girməyin yaxın olduğunu təsdiqləyən bədii vasitələrlə izləyicisində də incə həyəcan yaradır. Tünd göy rəngdə verilmiş göy üzündə parlayan ay işığı, saat qülləsinin 12-yə yaxınlaşan əqrəbləri, ön səhnədə metrostansiyanın yanında hərəkət edən insan toplusunun daha dinamik təsvirləri əsərdə qarşıya qoyulmuş məqsədi xüsusi olaraq həyata keçirmişdir. Şux geyimdə verilmiş obraz bir əli ilə "əla" işarəsini göstərməklə hər şeyin daha gözəl olacağına və bununla da rəssamın obraz ümumiləşdirməsini məharətlə həyata keçirməsi diqqəti cəlb edir.

Qeyd edildiyi kimi, Sov.İKP-nin XXV qurultayının müsbət nəticələrini ifadə edən bir çox illüstrasiyaların həyata keçirilməsi rəssamlar tərəfindən fərqli kompozisiyaların meydana gəlməsini şərtləndirmişdir. Belə yaradıcılıq nümunələrindən birinə, 1976-cı ilin fevral ayında dərc olunmuş nümunəsinə diqqət yetirdiyimizdə yenə də burada qalib ölkə, üstün insani münasibətlərin bədii təsvir formaları ilə rastlaşırıq. Arxa fonda ucalan yeni binalar, fabrik və zavodların ümumiləşdirilmiş simasını yaradan təsvir mavi, boz və ağ rəng dəyərləri ilə öz həllini tapmışdır ki, bu da onun önündə verilmiş məqsədi açıqlayan elementlərin daha qabarıq qavranılmasına geniş imkan yaradır. Aşağıda bir neçə insan fiqurunun birlikdə təsviri verilmişdir. Onların dərin müzakirəsi istehsal müəssisələrində çalışan rəhbər işçilərin xarakterik simasını canlandırmaqdadır. Əsərin mərkəzində isə qürurlu fəhlənin obrazı olduqca böyük planda öz əksini tapmışdır. O, özünün fəhlə geyimində bir əlində qırmızı plakatda ağ şriftlərlə yazılmış "XXV" kəlməsini tutaraq digər əlində SSRİ-nin nişanına işarə edir. Fəhlə bununla "... gərək hamı bu nişana layiq olsun!" şüarını səsləndirərək, əzmlə, yorulmadan dövlət yolunda çalışmağa həvəsləndirir bütün vətəndaşları. Dövrün "xoşbəxt fəhlə" simasının ümumiləşdirilmiş həllində rəssam onu olduqca güclü, sağlam vücuda sahib, qürurlu, sarsılmaz sifət cizgiləri ilə həll edərək məqsədinə uğurla nail ola bilmişdir.

Siyasi psixologiyanın təsir vasitələrindən birinə çevrilmiş mətbu orqan kimi dəyər qazanan "Kirpi" jurnalında məhsuldarlığı artırmaq məqsədilə verilmiş illüstrasiyada rəssam qarğıdalını obrazlaşdıraraq diqqət çəkməyi bacarmışdır (4, 235). Qarğıdalı taxıl istehsalının bütün sahələr üçün müsbət nəticə verə biləcəyinə işarə edən karikatura nümunəsində əsas obraz kimi iri formada qadın simasında öz əksini tapmışdır. Onun uzun gövdəsi qarğıdalının əsas hissəsini, qol-

ları yaşıl rəngli hər iki yana açılmış yarpaqları, baş hissəsində narıncıya çalan arxaya tərəf daranmış saçları isə saçaqlarını əks etdirir. Qadının nazlı simasında onun səsləndirdiyi "... hər kəs mənimlə dostluq etsə, ancaq xeyir görər" ifadələri əlində xonca kimi saxladığı südçülüyün, maldarlığın, quşçuluğun və digər sahələrin bolluq, bərəkət gətirdiyinə işarə edən iri sini ilə sanki dediklərinin açıq təsdiqi olduğunu göstərməyə çalışır.

Qeyd edilən element illüstrasiyanın sol hissəsində iri planda həll edildiyi halda, rəhbər işçilərin birlikdə olan təəccüb dolu simalarını əks etdirən obrazları isə daha kiçik ölçüdə tablonun sol aşağı qismində yer almışdır. Dörd nəfər kişinin yer aldığı rəhbərliyin ifadəsində onların deyilənləri diqqətə alması, daha dərindən düşünərək burada böyük bir həqiqətin dayandığını düşünməsi rəssamın dəqiq psixoloji cizgi yaratma səriştəsini meydana çıxartmışdır. Onların başlarını yuxarıya doğru çevirərək dartılan qaşları, təəccüblə dolmuş nəzərləri rəssamın fikirlərini daha aydın şəkildə biruzə vermişdir.

Oktyabr inqilabının 59-cu ildönümünə həsr olunmuş jurnalın 1976-cı il oktyabr sayında dərc edilmiş nümunəsində verilmiş əsərdə isə xüsusi olaraq yüksəlişi dəstəkləyən, xoşbəxt gələcəyin gəldiyini ifadə edən kompozisiya ilə rastlaşırıq. "Belə sərvət, belə dövlət, bu qədər bolluca nemət, qızıl əllərlə yaranmış, yaradan əllərə alqış!" misraları ilə kompozisiyanın məna açıqlamasına aydınlığın gətirilməsi bir-birilə əlaqələndirilmiş təsvir və yazının bədiiliyi ilə səhifəyə olan marağı artırmışdır. Arxa fonda narıncı rəngli səth üzərində XXV qurultaya işarə edən yazı ağ tonda həll edilmişdir. Onun üst qismində isə qırmızı lentə bənzər elementin üzərində "oktyabr 1959" kəlməsi qeyd edilmişdir. Onun önündə verilmiş qadın obrazı özünün milliliyi ilə diqqəti cəlb edir. Bu milliliyin verilməsində rəssam geyim nümunələrinin əsasları ilə yanaşı, həm də sifət cizgilərinin ifadəsində də böyük ustalıq nümayiş etdirmişdir. Baş hissədə verilmiş kəlağayı çiyinlərə qədər gələrək ortadan səliqə ilə ayrılmış saçların, qara çatma qaşların qadına bəxş etdiyi gözəlliyini milli-ənənəvi xüsusiyyətləri ilə meydana çıxarmışdır. O, hər iki əli ilə yuxarıya qaldırdığı sininin içərisində olan bol meyvələri, bərəkətli məhsulu göstərərək qeyd olunanların təsdiqini qürurla nəzərə çatdırır. Rəngarəng formalarla öz əksini tapmış topa ağ pambıqlar, digər hissədə sapsarı sünbüllər, mərkəzdə bol meyvələr, eləcə də süd məhsulları, taxıl məhsulları sıx, lakin nizamlı şəkildə yer alaraq özünün aydın ifadəsinə imkan yaratmışdır.

Oktyabr inqilabının 59-cu ilinin XXV qurultayla üst-üstə düşməsi bu dövrdə planda qarşıya qoyulmuş öhdəçiliyin uğurla həyata keçirildiyini ifadə edən digər illüstrasiyada iri istehsalat maşını ilə hərəkət edən sürücünün böyük qırmızı hərflərlə yazılmış "59" rəqəmini uğurla arxasında daşıması ilə rəssamın özünəməxsus yaradıcı tapıntısını əks etdirir. İrəliyə hərəkət edən maşın böyük bir quruculuğa doğru yol almışdır. Hansı ki, orada iri binalar, zavod və fabriklər,

digər istehsalat müəssisələri yer almışdır. Həmin uzaq məsafədən pastel tonlarla verilən şəhər mənzərəsinin ümumiləşdirilmiş xarakterikliyini ifadə edən təsvirlə əsərin mahiyyətini açıqlayır. Düz, açıq yolla hərəkət edən maşının sürücüsü arxaya doğru gülə-gülə boylanaraq yol kənarında böyük qəzəblə mənzərəni seyr edən mənfur xarici siyasətin simasını ifadə edən obrazlara doğru baxır. Onların məqsədinə çata bilməyən mənfur obrazları yol kənarında qorxaqcasına qalmış olduqca kiçik ölçüləri ilə qələbə və məğlubiyyət arasındakı kəskin təzadı ifadə edir. Onlar kiçik həmlələr ilə bu böyük inkişafın qarşısını almağa çalışaraq, olduqca gülünc obrazları ilə izləyicilərində də istehza yaradırlar.

Jurnalda yer alan bir çox illüstrasiya isə bəzən özünü zərif, xoş təsir gücü ilə də izləyicisində yüksək əhval-ruhiyyə yaratmağı bacarmışdır. Məsələn, Q.Adilin müəlliflik etdiyi belə nümunələrdən birində baharın ətrini xatırladan şüşələrdə lalə, qızılgül, yasəmən, bənövşə kimi güllərin adı qeyd olunmuşdur (5, 34). Kənardakı vazada isə güllərlə bərabər qırmızı rəngli kiçik bayraqların üzərində 28 aprel, 1 may, 7 may kimi xüsusi günlərin baharın özü ilə birlikdə gətirdiyi xoş auranı incə ruhlu kompozisiya quruluşunda nəzərə çatdırmışdır. Rəssam burada saçları ağ bulud dalğası kimi yana yayılan, qollarında çiçək çələngi verilmiş gənc qız obrazını verməklə məqsədinə xüsusi olaraq nail ola bilmişdir.

Təbii ki, qeyd olunan nümunələr dövrün siyasi tələblərini şərtləndirən yaradıcı prinsiplərə sadiqliyi də səciyyələnir. Lakin dolğun və maraqlı kompozisiyaların ifadə etdiyi əsərlərdəki milli ruh, ənənəvilik, incə yumor, dəqiq psixoloji yanaşma həmin əsərlərin yüksək dəyərə malik olduğunu qeyd etməyə əsas verir.

**Ədəbiyyat siyahısı:**


1. Əliyev Z. Rəssam fırçasının qüdrəti //Azərbaycan. 2013. 3 iyul. s.11.
2. Nəcəfov M. Ustad rəssam // Bakı qəzeti. 1980, 24 sentyabr, s. 8.
3. Hacızadə B. Azərbaycan karikaturaçı rəssamları. Bakı. 2018.
4. Hacızadə B. 1980-1991-ci illər "Kirpi" satirik jurnalı ilə əməkdaşlıq edən gənc rəssamların yaradıcılığı //Azərbaycan arxeologiyası və etnoqrafiyası. 2016. №2. s.234-239.
5. Hacızadə B. "Kirpi"nin rəssamları. Bakı. 2017.

**Гюнай Касымханлы**

**ОПТИМИСТИЧНОЕ ВЫРАЖЕНИЕ РАЗВИТИЯ В ИЛЛЮСТРАЦИЯХ ЖУРНАЛА «КИРПИ» («ЁЖ») В 1970-Х ГОДАХ**

**Резюме:**В 1952 году в Азербайджанской периодической печати начал публиковаться новый сатирический журнал. Журнал «Кирпи» («Ёж»), кото-рый по праву считается достойным продолжителем школы сатирического журнала «Молла Насреддин», создавался как требование времени. Журнал служил трибуной для выдающихся художников того времени, и на страни- цах журнала стали появляться ценные карикатуры. Карикатуры в журнале «Кирпи» («Ёж») дали толчок формированию новых традиций в карикатур- ном искусстве Азербайджана. В статье исследуются художественные осо- бенности карикатур, опубликованных в журнале «Кирпи» («Ёж») в 70-х го- дах прошлого века. Семантика и идейно-содержательные особенности этих карикатур стали предметом исследования.

**Ключевые слова:** карикатура, «Кирпи» («Ёж»), журнал, изображе- ние, графика, сатира, композиция.

**Gunay Gasimkhanli**

**OPTIMISTIC EXPRESSION OF DEVELOPMENT IN ILLUSTRA- TIONS MADE TO THE JOURNAL “KIRPI” (“HEDGEHOG”) DURING 1970S**

**Summary**: In 1952 a new satirical magazine was published in the periodical press of Azerbaijan. The journal “Kirpi” (“Hedgehog”) considered aworthy successor of the school “MollaNasreddin” was actually created as a requirement of the era. The journal played the role of tribune for outstandingartists of that time and the valuable cartoon samples began to be created. Thecartoons in the journal “Kirpi” (“Hedgehog”) gave an impetus to the formation ofnew traditions in the art of Azerbaijani cartoons. In the article the artistic featuresof cartoons published in the journal “Kirpi” (“Hedgehog”) in the 70s of the lastcentury are studied. The semantics, ideological content features of those cartoonshave become the subject of the research.

**Key words**: Cartoon, «Hedgehog», journal, description, graphics, satire,composition

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30. 11. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**